**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ YAZIÇI PUBLİSİSTİKASI: GERÇƏKLİYƏ YENİ BAXIŞ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Leyla Fərhad qızı Məmmədəliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı -2022**

Dissertasiya işi Azərbaycan Universitetinin "Azərbaycan dili və ədəbiyyat" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Nizami Qulu oğlu Cəfərov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Yədulla Bəbir oğlu Ağazadə**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Nəzakət Fətəli qızı Məmmədli**

filologiya üzrə fəlsəfə doktoru
**Samirə Məhəmməd qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ədəbiyyatımızda azərbaycançılıq ideyasının güclənməsini öncə Azərbaycan Xalq Cümhuriyyəti yarandığı dövrdə müşahidə edirik. Bu baxımdan qeyd etmək lazımdır ki Müstəqillik qazanan Azərbaycan Respublikası bir tarixi, siyasi, ideoloji fakt olaraq yalnız dövrünün tarixi şəraitinin məhsulu olmayıb, eyni zamanda həmin illər milli, siyasi, ədəbi, fəlsəfi düşüncənin nəticəsi olaraq meydana gəlib. Milli dövlətçilik ideyasının tarixi o qədər uzağa getməsə də, müstəqillik ideyalarını şərtləndirən milli mənlik şüurunun yaranmasının aspektləri məhz bədii düşüncəyə söykənir. Yəni milli mənlik şüuru, əvvəlcə bədii, sonra isə ictimai-siyasi təfəkkürdə təşəkkül tapır. Müstəqillik dövrü yazıçı publisistikasının bu baxımdan ayrıca bir mərhələ kimi öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Yeni tarixi dövrlərin başladığı mərhələlərdə böyük ədəbiyyatın yaranmasının xeyli çətinlikləri vardır. Belə məqamlarda daha çox publisistika ön sıraya çıxır. Azərbaycan ədəbiyyatında da bu xüsusiyyət özünü bariz şəkildə göstərməyə başladı. Məlumdur ki, 90-cı illərdən başlayaraq Azərbaycanın dövlət müstəqilliyinə qovuşması ictimai-sosial həyatın bütün sahələrində müəyyən canlanma, çevriliş yaratmağa başladı. Ölkənin azad, demokratik, sivil dövlətlər sırasında layiqli yer almağa çalışması əhəmiyyətli tədbirlərin görülməsi və islahatların aparılmasını zəruri qılırdı. Elə bu baxımdan dövlətin həyata keçirməli olduğu vacib problemləri özündə çevik əks etdirən dövrü mətbuat nümunələri, qəzet-jurnallar yeni müstəvidə fəaliyyətə başladı. Burada dərc olunan məqalələrin daha çox publisistik üsluba aid olduğunu nəzərə alaraq belə qənaətə gəlmək olar ki, müstəqillik illərindən başlayaraq mühüm keyfiyyətlər kəsb etmiş bu janrın geniş tədqiqinə böyük ehtiyac vardır.

Mövzu baxımından publisistika ayrı-ayrı sahələri (iqtisadi, siyasi, ədəbi-tənqidi və s.) əhatə etmiş, zaman-zaman, tarixi inkişafın gedişi nəticəsində müxtəlif növlər üzrə qruplaşmış, daha sonra özünəməxsus şəkillərdə (məqalə, müsahibə, oçerk,

felyeton, pamflet, rəy, məktub və s.) formalaşdırılmışdır.

Müstəqillik illərindən başlayaraq Azərbaycanın ictimai, sosial-siyasi çevrəsində baş verən təbəddülatlar, tendensiyalar, əldə olunan nailiyyətlər bir sıra aktual elmi işlərin, çoxsaylı monoqrafiyaların meydana çıxması ilə nəticələndi. Xüsusilə aparıcı janr qismində geniş aktuallıq qazanan publistik üslubun inkişafına geniş rəvac verildi ki, bu da özünü daha çox siyasi publisistika nümunələrində əks etdirməyə başladı. Beləliklə, müstəqillik dövrü publisistikası artıq öz xüsusi ab-havası ilə əvvəlki illərlə müqayisədə xüsusilə seçildi və ictimai-siyasi mövzusu, orijinal ideya istiqaməti, yazı üslubu ilə fərqlənməyə başladı. Bu baxımdan dissertasiyada elmi nəzəri fikrin konkret bir dövrü haqqında dolğun təsəvvür yaranır. Bu da mövzunun aktuallığını şərtləndirir.

Müstəqillik illərində publisistika tarixində öz xüsusi yeri olan müəlliflərindən Sabir Əhmədli, Anar, Elçin, Sabir Rüstəmxanlı, Elmira Axundovanın müstəqillik dövrü publisistikası real həyat hadisələri, günün önəmli sosial-siyasi problemlərini əks etdirməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Onların yaradıcılığında dövrün ictimai-sosial problemlərinin bədii publisistik üslubun prinsiplərinə müvafiq təcəssüm olunması və operativ şəkildə oxuculara çatdırılması da milli şüurunun formalaşmasında mühüm rol oynayır. Əsərlərinin başlıca leytmotivi milli-mənəvi dəyərlərin aşılanması olan adları çəkilən müəlliflərin bədii əsərlərində olduğu kimi, publisistikalarında da ənənəyə sadiqlik öz əksini tapır. Belə ki, adı çəkilən dövrdə xalqımızın üzləşdiyi bir sıra məlum hadisələrin analitik şərhi, Qarabağ hadisələri, Yanvar qırğını, Xocalı faciəsi, dilimizin saflığı, mədəniyyətimizin tərəqqisi və s. kimi ictimai-siyasi hadisələr müstəqillik illərində bu sənətkarların publisistikasının ideyasını müəyyən edir.

Fikrimizcə, publisist məqalələr, əsərlər insan həyatının, varlığının, fəlsəfəsinin başa düşülməsi, qavranılması və qiymətləndirilməsi, bədii şüurun inkişafında yardımçı əsərlərdir. Müstəqillik dövrü bədii publisistikasının tematikası, dil və üslubu, təhkiyə üsulu və s. məsələlər orijinaldır və bütün

zamanlarda öz təsir gücünü saxlamağa qadirdir.

Mövzunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək lazımdır ki, ümumiyyətlə tədqiqatçılar tərəfindən yazıçı publisistikasına maraq XX əsrin sonlarından başlamışdır. Aygün Əzimovanın "Müstəqillik dövrü Azərbaycan mətbuatında bədii publisistika ("Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarının materialları əsasında)" [1], Aynurə Paşayevanın ""Azərbaycan" jurnalinda publisistika məsələləri (1953-1910)" [2], İslam Ağayevin "Ədəbiyyat, mətbuat və publisistika problemləri (məqalələr toplusu)" [3], Elçin Mehrəliyevin "Publisistika: meyillər, problemlər, axtarışlar"[4] adlı tədqiqatları bu sahədə olan boşluğu qismən də olsa aradan qaldırmağa cəhd edir. Bundan başqa professor Cəlal Bəydilinin tərtib etdiyi "Azərbaycan publisistika antologiyası"[5] əsərində akademik İsa Həbibbəylinin "Xalq şairi Sabir Rüstəmxanlı: millilik, vətəndaşlıq və müasirlik"[6], Nazif Ələkbərlinin "Tənqiddən keçən şəxsiyyət" [7] məqalələrində filologiya elmləri doktoru M.Nəcəfovanın, tənqidçi Ə.Cahangirin və başqalarının yaradıcılığında yazıçı publisistikasının bu və ya digər problemlərinə toxunulmuşdur. Mövzu ilə bağlı adı çəkilən məqalələr göstərir ki, yazıçı publisistikası həmişə diqqət mərkəzində olmuşdur. Bu mülahizələrin ədəbi publisistikanın araşdırılması istiqamətində oynadığı rol böyükdür.

---

[1] Əzimova, A.Q. Müstəqillik dövrü Azərbaycan mətbuatında bədii publisistika ("Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarının materialları əsasında): / Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. / – Bakı, 2007. – 148 s.

[2] Paşayeva, A.N. ""Azərbaycan" jurnalinda publisistika məsələləri (1953-1910)" / A.N.Paşayeva. – Bakı: Elm və Təhsil. – 2019. – 217 səh.

[3] Ağayev, İ.M. Ədəbiyyat, mətbuat və publisistika problemləri [Məqalələr toplusu] / İ.M.Ağayev. − Bakı: Elm, − 2006. − 560 s.

[4] Mehrəliyev, E. Publisistika: meyillər, problemlər, axtarışlar [Elektron resurs] / Ədəbiyyat qəzeti. – 2018, 02 iyun. URLhttp://edebiyyatqazeti.az/news/diger/1891-elcin-mehreliyev

[5] Bəydili, C. Azərbaycan publisistika antologiyası / C.Bəydili. – Bakı: Şərq-Qərb. – 2007. – 345 s.

[6] Xalq şairi Sabir Rüstəmxanlı: [kollektiv] / AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu; elmi red. T.Mustafayev; ön söz İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, - 2021. – 483 s.

[7] Ələkbərli, N. Tənqiddən keçən şəxsiyyət // – Bakı: Ulduz, - 1998. -№ 12, s.86-87

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, bu tədqiqat işində ilk dəfə olaraq müstəqillik illərində yazıçı publisistikası sistemli araşdırmaya cəlb edilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müstəqillik illərində ədəbi publisitika ilə bağlı çoxcəhətli problemlərin, sənətkarların yaradıcılığı kontekstində publisistika janrının ədəbiyyat tarixindəki rolunun öyrənilməsi təşkil edir. Tədqiqatın predmeti S.Əhmədli, Anar, Elçin, E.Axundova, S.Rüstəmxanlının monoqrafiyaları və dövrü mətbuatda nəşr olunmuş publisistik məqalələridir. Dissertasiyada eyni zamanda qeyd olunan müəlliflərin yaradıcılığı ilə bağlı yazılmış monoqrafiyalar və tədqiqat işləri, həmçinin Azərbaycanda publisistikanın tarixi, təşəkkülü və inkişafını əks etdirən elmi-nəzəri kitablardan da faydalanılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müstəqillik illərində yazıçı publisistikasının xüsusiyyətlərini araşdırmaq, onun milli ictimai fikrə təsirini üzə çıxarmaq, bu mövzu ilə bağlı monoqrafiya, məqalə, resenziyalarda öz əksini tapan fikirləri təhlil etmək və ümumiləşdirmələr aparmaq, Azərbaycan ədəbiyyat tarixində ədəbi publisistika yanrının yerini müəyyənləşdirmək dissertasiya işinin əsas məqsədlərindəndir. Qarşıya qoyulmuş məqsədin həyata keçirilməsi ilə bağlı aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Publisistikanın keçdiyi tarixi yol nəzərdən keçirilməklə bu sahədə yazılmış nəzəri və təcrübi ədəbiyyatları diqqətlə araşdırmaq;
- S.Əhmədli, Anar, Elçin, E.Axundova, S.Rüstəmxanlının publisistik yaradıcılığının dövrlər üzrə nəzərdən keçirilərək tədqiq və təhlil olunması;
- Dövrün ədəbi-elmi mühiti çərçivəsində publisistika janrının estetik tərəflərini sistemləşdirmək;
- Ədəbi prosesdə yazıçı publisistikasının yerini və mövqeyini, irəli sürülən mülahizələrin orijinallığını aydınlaşdırmaq;

- Azərbaycan ədəbiyyatının aktual problemlərinin həllində müstəqillik illərində yazıçı publisistikasının rolunu müəyyənləşdirmək;

- Ədəbi sənətkarların bir publisist kimi yetişməsində "Qobustan" dərgisinin rolunu öyrənmək;

- Elçinin "Vətən" cəmiyyətində göstərdiyi xidmətlərin onun publisistikasına təsirini araşdırılmaq;

- Müstəqillik illərində yazıçı publisistikasının dövrün ictimai-sosial problemlərinə həsr etdiyi tədqiqatlarda mövzu və problem dairəsini üzə çıxarmaq;

- Klassiklərin yaradıcılığındakı fəlsəfi düşüncələrin açılmasında yazıçı publisistikasının mövqeyini qiymətləndirmək.

**Tədqiqat metodları.** Dissertasiyanın tədqiqat metodunu tarixi-müqayisəli təhlil metodu təşkil edir. Bu metodun köməkliyi ilə müxtəlif elmi-tədqiqat üsullarından istifadə edərək analitik təhlillər aparılmış, elmi-nəzəri fikrin təcrübəsi əsas götürülərək dissertasiya və monoqrafiyalardan faydalanılmışdır. Eyni zamada mətbuat və ədəbiyyat tarixi, habelə, arxiv materiallarına istinad edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyanın əsas elmi prinsipləri aşağıdakı müddəalarla təyin olunur:

− Müstəqillik dövründə milli-ictimai şüurun formalaşdığı şəraitin analitik şərhi və ictimai-siyasi dəyişikliklərin Azərbaycan publisistikasına təsirini araşdırılması;

− Dövrün ümumi ədəbi publisistik mənzərəsini yaratmaqla ideya-məzmun yeniliklərinin üzə çıxarılması;

− S.Əhmədli, E.Axundova, S.Rüstəmxanlı, Anar və Elçinin publisistikasının sistemli şəkildə tədqiqata cəlb edilməsi;

− Yazıçı publisistikasının milli azadlıq ideyalarının formalaşması və inkişafında rolunun müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi.** XX əsr ədəbiyyatşünas tənqidçiləri tərəfindən yazıçıların publisistik fəaliyyətinə müxtəlif məqalələrdə toxunulsa da, ayrıca tədqiqat predmeti seçilməmiş, publisistik yaradıcılıqları bütövlükdə araşdırılmamışdır. Buna görə də dissertasiyada müstəqillik

illərində yazıçı publisistikası ilk dəfə sistemli şəkildə tədqiqat hesab edilir.

Müstəqilliyin əldə olunması yolunda bir-birinin ardınca xalqımızın başına gətirilən müsibətlər, dövrün siyasi icmalı, xalqın hər hansı bir xilaskarın dəstəyinə ehtiyacı və s. kimi amillər, Qarabağ olayları, 20 Yanvar faciəsi, Xocalı qətliamı və nəhayət, bütün bunlardan sonra Heydər Əliyevin hakimiyyətə qayıdışı və s. kimi sahələri əhatə edən publisistik yazılar dissertasiyada ilk dəfə araşdırılaraq tədqiq edilmişdir. İşin elmi yeniliyini aşağıdakı şəkildə müəyyənləşdirmək olar:

- Müstəqillik dönəmində formalaşan milli-ictimai şüurun, məlum hadisələrin analitik şərhinin təqdim olunması;
- Azərbaycan yazıçılarının publisist üslubda yazılan əsərlərinin ümumən Azərbaycan publisistikasına təsirinin elmi prinsiplərinin təyin olunması;
- Müstəqillik dönəmində yazıçıların publisistik əsərlərinin ideya-məzmun yeniliklərinin araşdırılaraq təqdim olunması;
- S.Əhmədli, E.Axundova və S.Rüstəmxanlının publisistik əsərlərinin ümumi şəkildə təhlili, Anar və Elçinin publisistikasının ilk dəfə olaraq sistemli şəkildə geniş tədqiqata cəlb edilməsi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bu tədqiqat mətbuat tarixi, habelə Azərbaycanda publisistikanın inkişafı yolunu işıqlandırmaq baxımından, eləcə də müstəqillik illəri yazıçı publisistikasında gerçəkliyə yeni baxışın araşdırılması yönündən xüsusi əhəmiyyət daşıya bilər. Dissertasiya həmçinin jurnalistlərə, mətbuat nəzəriyyəçilərinə də yeni informasiya verə bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işinin əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, ölkədaxili və xaricində keçirilən beynəlxalq konfransın materiallarında, beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrdə işıq üzü görmüşdür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və həcmindəki işarələrin sayı.** Dissertasiya işi giriş (12258 i.s.), üç fəsil (I fəsil 84435, II fəsil 79219, III fəsil 78737 i.s.), nəticə (7721 i.s.) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 262370 işarə sayıdır.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, elmi yeniliyi, tədqiqatın predmeti, məqsəd və vəzifələri, metodu, mövzunun öyrənilməsi, dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası haqqında məlumat verilmişdir. Dissertasiyanın I fəsli **"Müstəqillik illərində yazıçı publisistikasında gerçəkliyin inikası"** adlanır. Bu fəsil 3 paraqrafdan ibarətdir. "Yazıçı publisistikasının elmi-nəzəri inkişaf xüsusiyyətləri" adlanan birinci paraqrafda ilk növbədə yaradıcılıqlarında publisist üsluba üstünlük verən yazıçıların sənətkarlıq xüsusiyyətləri nəzərdən keçirilir, S.Əhmədli, Anar, Elçin, E.Axundova, S.Rüstəmxanlının müstəqillik illərindəki publisistik yazıları tədqiq olunmuşdur. Cəmiyyətin çağdaş sosial və iqtisadi inkişafında önəmli rol oynayan yazılar diqqətdən keçirilir.

Yaxın gələcəkdə baş verəcək hadisələrin ilk anonsunu verməyə cəhd edən publisistika yazıçıların yaradıcılığında böyük yer tutur. Tədqiqat zamanı məlum olmuşdur ki, bəhs olunan dövrdə yazıçı publisistikasında əsasən dövrün, mühitin siyasi ab-havası, ölkədə baş verən hadisələr üstünlük təşkil edir. Bu dövrdə yazılmış publisistik əsərlərdə əsasən millilik, vətənpərvərlik hissləri bütün qabarıqlığı ilə əks olunur.

Məlumdur ki, Sovet diktaturasının rəhbəri Stalinin ölümündən sonra, xüsusilə də 60-cı illərdən başlayaraq elm və incəsənətin müxtəlif sahələrində canlanma müşahidə olunmağa başladı. “Ottepel” – yumşalma dövründə aşkarlığa imkan verilməsə də, söz sənətkarları sətiraltı qatlarda öz ideyalarını ifadə etməyə qismən də olsa, şərait tapa bilirdilər. Bu baxımdan cəmiyyətin saxta dəyərlərindən uzaqlaşan, diqqəti insan və onun düşüncə tərzinə yönələn, bəzən sosialist realizmindən uzaqlaşıb modernist yazı üslubuna can atan yeni tendensiya meydana gəlir. “60-cılar” adlanan bu tendensiyanın nümayəndələri həm müxtəlif ədəbi növ və janrlarda yazdıqları bədii əsərlər, həm də yazıçı publisistikası ilə saxtakar kommunist ideologiyasına qarşı çıxan yazıları ilə diqqəti cəlb edirlər. Bu yazıçılar tarixə müraciət

edəndə də yaşadıqları dövrün problemlərini düşünür, müasirliyə xidmət edirdilər.

Yazıçı publisistikası publisistik və bədii təfəkkürü birləşdirən, ikisinin sərhədində meydana gələn düşüncə tərzi olaraq yalnız informasiya ötürmək vasitəsi kimi deyil, həmçinin emosional təsir vasitəsi olaraq funksionaldır. Oxucu publisistin düşüncələrində müəllifin empirik reallığı ilə tanış olur. Publisist proses və məfhumları zamanı gerçəkliklərindən yola çıxaraq analiz etdiyi üçün, bir növ, çağdaşlığın tarixini yazan tədqiqatçı rolunda çıxış edir. Bu baxımdan dövrün ziyalılarının xüsusən tarixin ən həssas dönəmlərində baş verən olaylara etinasız qalmayıb onlara davamlı şəkildə münasibət sərgiləməsi də, yazıçıların bu məsuliyyətli işi öhdəsinə götürməsi də tamamilə təbiidir.

1988-ci illərdən başlayaraq Azərbaycanda baş verən məlum olaylardan sonra, demək olar ki, ziyalılarının əksəriyyətinin məhz publisistik üslubda qələmə aldıqları bütün əsərlər dövrün reallıqlarını əks etdirməyə yönəlmişdir. Bu dövrdə özünü azərbaycan ziyalısı hesab edən hər kəsin münasibətinin, mövqeynin məhz publisistik üslubda dövrün mətbu orqanlarında oxuculara təqdim olunması vətəndaşlıq borcu kimi dəyərləndirilirdi. Tarix sübut edir ki, zaman-zaman köləliyə, zorakılığa qarşı yönəlmiş ən tutarlı, kütləvi mübarizə vasitələrindən biri də mətbuatdır. Publisistlər etiraf edirlər ki, məhz bu üslubda yazmaqla insanlarda müstəqillik duyğularını alovlandırmaq, xalqı sülh şəraitində firavan yaşamağa ruhlandırmaq, müharibənin sona çatmasını arzulamaq kimi şüar, çağırış xarakterli əsərlər daha münasib, daha əlverişlidir.

Publisistika həmişə yazıçılar, jurnalistlər və ümumiyyətlə, ziyalılarımızın diqqət mərkəzində olmuşdur. 90-cı illərin əvvəllərində Azərbaycanda yaşanan ictimai-siyasi böhranlar, Dağlıq Qarabağda elan olunmamış müharibənin başlanması, 20 Yanvar faciəsi, daha sonra dəhşətli Xocalı soyqırımın törədilməsi və s. bu kimi fəci olaylar ölkəmizdə bədii publisistikanın inkişafına təkan və yeni istiqamət verdi.

Müstəqillik dövründə publisistik yazıları ilə artıq oyanmış xalqın mübarizə əzmini, iradə və dönməzliyini bir az da artıran yazıçılarımızın da yaradıcılığının ana xəttini ölkəmizin taleyi, ərazi bütövlüyü, Qarabağın azadlığı kimi məsələlər təşkil edirdi. Bu dönəmdə Azərbaycan yazıçılarının publisistik yazıları, mütəmadi olaraq "Azərbaycan", "Ulduz", "Qobustan" dərgiləri, "Ədəbiyyat qəzeti", "Ədalət", "Kaspi" və s. qəzetlərində çap olunurdu.

Müstəqillik illərində Azərbaycanda publisistikanın inkişafında öz xüsusi dəst-xəti ilə seçilən imzalardan biri də Sabir Rüstəmxanlıdır. S.Rüstəmxanlının müstəqillik dövrü publisistikasının əsas ideya-bədii xüsusiyyətlərini Qarabağda törədilən vəhşiliklər, dilimizin adının dəyişdirilməsi ("Xalqın adından danışmasınlar"), ictimai-sosial problemlər, biganə gənclərin Xocalı, 20 Yanvar kimi fəci olaylardan xəbərsiz olmaları ("Gizli müharibə"), xarici şirkətlərin maddi mədəniyyət abidələrinin korlaması ("Xaricilər Azərbaycana nə gətirir"), təhsilimizdəki bəzi çatışmazlıqlar və s. kimi problemlər təşkil edir. Müstəqilliyin ilk illəri, Qarabağ həqiqətlərinin real təsvirinə həsr edilmiş "Müharibə sözdən başlanır" adlı məqaləsində müəllif müharibənin heç bir ölkəyə fayda verməyəcəyini, hər iki ölkə üçün fəsadsız ötüşməyəcəyini bildirirdi.

Onun publisistik yazılarında xalqa bütün varlığı ilə xidmət etmək, vətənə məhəbbət qabarıqlığı ilə hiss olunur. Sabir Rüstəmxanlının publisistikası bütövlükdə vətən və vətəndaşlıq hissləri və ideyaları ilə əhatə olunmuşdur. S.Rüstəmxanlıya görə, insanı ucaldan ən vacib amil vətənin azadlığı uğrunda mübarizə aparmaqdır və elə müəllifin publisistikasının ana xətti də "Vətəni qorumaq" ideyasıdır ki, bütün bunlar onun yaradıcılığında fəal vətəndaşlıq mövqeyindən bədii ifadəsini tapır. Bəzən publisistik sözün ifadəsi poetik ifadədən, bəlkə də, bir az yumşaq təsir gücünə malik olur. S.Rüstəmxanlı publisistik fikrini poetik fikirlə daha mükəmməl şəkildə əks etdirə bilir. O, publisistik yazılarında bədbin notlara qapılmır, demək istədiklərini tarixi faktlara söykənərək ifadə edir. Müəllif hər zaman haqq-ədalət yolunda olduğumuza görə qalib gələcəyimizə tam səmimiyyəti

ilə inanırdı. Prezident İlham Əliyevin söylədiyi kimi, *“Biz haqq yolundayıq, bizim işimiz haqq işidir”* devizinə arxalanan xalqımız, ordumuz 44 günlük Zəfər tariximiz olan böyük qələbənin də şahidi oldu.

Sabir Rüstəmxanlı bir publisist kimi “Ömür kitabı” ilə hələ 80-ci illərin sonlarından məşhurlaşmağa başladı, əsər Azərbaycan xalqının özündə geniş şəkildə əks etdirən bir tarixi salnamədir. Kitab çap olunan zaman elə bir dövr idi ki, cəmiyyətdə publisistikaya böyük ehtiyac vardı və elə buna görə də əsər böyük əks-səda doğurdu; nəinki təkcə müəllifin yaradıcılığının, eləcə də müstəqillik ərəfəsində publisistikamızın ana xəttini təşkil etdi.

Yazıçının sənətkarlıq xüsusiyyətləri əsərlərinin emosionallığını daha da artırmış, günahsız insanların qətlinə fərman verən qatillərə nifrət hissini birə-beş artırmışdır.

Müstəqillik illərində yazıçı publisistikasında xüsusi yeri olan imzalardan biri də Xalq yazıçısı Sabir Əhmədlidir. “Yazılmayan yazı” adlı memuar romanı onun publisistik yaradıcılığının xüsusi bir nümunəsidir. Avtobioqrafik məzmunlu əsər xatirələr toplusundan ibarətdir. Kitabda yazıçının uşaqlıq illəri − Cəbrayıldan başlanan keçmiş xatirələri, nəsil şəcərəsi, tələbəlik, gənclik illəri, “Ədəbiyyat qəzeti”nin baş redaktoru kimi iş həyatı, yazıçılığı, həyatının bütün səhifələri ətraflı və dolğun işıqlandırılmışdır.

Müstəqillik illərində yazıçı publisistikasında xüsusi yeri olan imzalardan biri də Elmira Axundovadır. O, jurnalist-publisist, tanınmış ictimai xadim və alim olmaqla yanaşı, həm də, yazıçı kimi Azərbaycanın ictimai-sosial sferasında çox böyük işlər görmüşdür. Ulu öndər Heydər Əliyev yazıçının xidmətlərini yüksək qiymətləndirmiş, “Şöhrət” ordeni ilə təltif etmişdir. O, yazıçı kimi Heydər Əliyevin həyat və fəaliyyətinə həsr etdiyi “Heydər Əliyev. Şəxsiyyət və zaman” adlı 7 kitabdan ibarət 6 cildlik əsəri ilə məşhurlaşmışdır. Böyük şəxsiyyətin həyatını 6 cildlik əsərdə dəqiqliyi ilə təsvir etmək olduqca məsuliyyətli bir iş idi. Bədii və publisistik yaradıcılığının zirvəsi olan əsərin işıq üzü görməsi geniş oxucu kütləsinin rəğbəti ilə qarşılandı və

müəllif Azərbaycan ədəbiyyatı tarixində əbədi möhürünü vurmuş oldu.

Uzun illər keçsə belə, bu əsər ulu öndərin xalqımızın tarixində oynadığı misilsiz rolunu öyrənməkdə qiymətli bir məxəz olacaq və heydərsevərlərin stolüstu kitabına çevriləcək. Elmira Axundova 1990-2003-cü illərdə “Literaturnaya qazeta”, “Delovoy mir”, “Obşaya qazeta, “Vek”, “İzvestiya” kimi tanınmış kütləvi informasiya vasitələrində Azərbaycanı layiqincə təmsil etmişdir.

Dissertasiyanın ikinci paraqraf "Yol qeydləri (səyahətnamələr) və memuaristikanın müstəqillik dövrü yazıçı publisistikasında rolu” adlanır**.**

Hər bir yazıçı və ya şairin gəzib-gördüyü yerlərlə bağlı təəssürüatlarını oxucuları ilə bölüşmək istəyi təbiidir.

Hələ XVIII-XIX əsrlərdə yaşayıb-yaratmış, ömrünün böyük hissəsini səyahətdə keçirən coğrafiyaşünas alim, publisist Hacı Zeynalabdin Şirvaninin gəzmiş olduğu ölkələrin tarixi, adət-ənənələri ilə bağlı qələmə aldığı “Bustanus-səyahə” (Səyahət bostanı), “Hədayiqüs-səyahə” (Səyahət bağları) və s. kimi səyahətnamələri publisistikanın ən dəyərli nümunələri kimi bu gün də əhəmiyyətlidir. Səfər təəssüratları, yol qeydləri publisistik üslubun növləri kimi, boyük maraq kəsb edir. İsmayıl bəy Qutqaşınlının 1960-cı ildə tapılaraq ədəbi ictimaiyyətə təqdim edilən “Səfərnamə” əsəri də Azərbaycan bədii publisistikasının maraqlı bir səhifəsidir.

Bu paraqraf yeni tendensiya üslubunun görkəmli nümayəndələri Anar və Elçinin 1960-80-ci illər publisistik yaradıcılığında yol qeydləri-səfərnamə xarakterli əsərlərinin təhlilinə həsr edilmişdir. Sovet imperiyasının totilatar rejimi altında yaşayan xalqların heç bir kapitalist ölkəsinə çıxışının olmaması onları informasiya blokadasına məruz qoymuşdu. Belə bir dövrdə xarici ölkədə səfərdə olan az sayda insanların təəssüratının bölüşülməsi maraqla qarşılanırdı. Bu baxımdan xüsusilə kapitalist üsul-idarəsilə yaşayan ölkələrdə səfərdə olan yazıçıların yol qeydləri, səfərnamələri bu ölkələri heç bir zaman görə bilməyən insanlar üçün yeni bir dünyaduyum, dünyagörüş

əldə etmək rolunu oynayırdı. Elçinin çoxcəhətli, çoxçalarlı publisistik əsərləri sırasında “Səyahət notları” adlanan əsəri diqqətəlayiqdir. Yol qeydləri, səfər təəsüratları nəticəsində qələmə alınan əsərin başlığı altında müəllifin “Dunayda “Amur” üzürdü”, “Yaxın, uzaq Türkiyə”, “Dyula Çak ilə söhbət”, “Qabrovo görüşləri”, “Palma ülfəti”, “Yanan ağacın şəfəqləri” və s. publisistik yazıları toplanmışdır. Anarın, M.Aslanın, Q.Paşayevin, M.Hüseynin və S.Rüstəmxanlının Türkiyə, İsrail, İraq kimi ölkələrlə bağlı təəssürat xarakterli publisistik əsərləri də yeni bir dünyaduyumun əsasını qoyan əsərlər hesab oluna bilər.

Yazıçı publisistikasının inkişafında xüsusi yeri olan memuar janrı da müstəqilik illərində geniş vüsət almağa başladı. Bu janrda yazılan əsərlərdən görkəmli yazıçı-publisist Qılman İlkinin “Təbriz xatirələri”, “Bakı və bakılılar”, Hüseyn Abbaszadənin “Dünyadan gör necə insanlar gedib”, Manaf Sülüymanovun “Eşitdiklərim, oxuduqlarım, gördüklərim”, “Lahıcda ötən günlər”, “Şagirdlik illərim” və s. adlarını çəkmək olar. Eləcə də, 1996-cı illərdə dövrü mətbuatda çoxsaylı portret-oçerklərə rast gəlirik. Belə əsərlərə misal olaraq Mirvari Dilbazinin “Ədəbiyyat qəzeti”ndə Süleyman Rüstəm, Mikayıl Müşviq haqqında yazdığı yazıları, yazıçı Afaq Məsudun “525-ci qəzet”in səhifələrində öz müasirlərinə həsr etdiyi xatirə öçerkləri də memuar janrının dəyərli nümunələrindəndir. Xalq yazıçısı Anarın publisistikasının böyük bir qolu da müxtəlif vaxtlarda, xüsusilə müstəqillik illərində dünyasını dəyişmiş bəzi görkəmli sənət dostları, yaxın qohumlara həsr edilmiş xatirə yazılarıdır. Memuar janrının uğurlu nümunələri hesab edilən bu tipli yazılarda müəllif bədii publisistikanın bütün mümkün imkanlarından yetərincə istifadə etmişdir. Bəhs olunan dövrdə Elçinin publisistikasında da ayrı-ayrı görkəmli elm və incəsənət xadimlərinə həsr olunan xatirə-memuar tipli yazılar kifayət qədərdir. Ümumiyyətlə, Elçin publisistik əsərlərində bədiiliklə elmiliyi sintezləşdirmişdir. Burada fikrin təsir gücünü artırmaq üçün bədiilik nə qədər orijinal və təbiidirsə, yeri gəldikcə mövzuya uyğun tarixi faktlar, elmi dəlillər də yerində

işlədilmişdir. Əsərlərində xalqın milli ruhu daim diqqət mərkəzində olan yazıçı-publisistin zəngin və çoxşaxəli yaradıcılığında folklor nümunələrindən də bol-bol istifadə olunur. Əsərlərinin bədii təsir gücünü artırmaq üçün xalqın zəngin söz boğçasından da yeri gəldikcə məharətlə istifadə edən Elçinin öz xalqına, millətinə bağlılığı açıq-aydın hiss olunur.

I Fəslin üçüncü paraqrafı "İctimai-siyasi fəaliyyətin bədii publisistikada təzahür xüsusiyyətləri" adlanır. Bu paraqrafda hələ 60-80-ci illərdən başlayan ictimai-siyasi fəaliyyətin həmin dövr yazıçıların yaradıcılığında əks olunması araşdırılır. 1980-ci illərin sonunda Azərbaycan xalqının ictimai-siyasi problemlərinə – torpaqların işğal olunmasına, həyat tərzinin aşağı düşməsinə, sosial rifahın əldə olunmamasına yazıçı və şairlərin biganə qala bilməməsi özünü məhz publisistik üslubda biruzə verir. Məhz bu üslubda onlar öz sözlərini, ideyalarını xalqa çatdıra bilirdilər. Bu dövrdə publisistik yazıların dərc olunduğu dərgilərdən "Qobustan", "Ulduz", "Azərbaycan" jurnalları ilk növbədə ölkənin istimai-siyasi, o cümlədən, sosial probleməri təcəssümünün tribunası rolunu oynayırdı. Bu baxımdan Elçinin "Vətən" cəmiyyətinin sədri kimi fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Kifayət qədər ictimai-sosial problemləri olan ölkədə hələ heç kəsin mühacir həmvətənlərinin taleyi barədə düşünmək iqtidarında olmadığı bir vaxtda adı çəkilən cəmiyyətin təşəbbüsü ilə xaricdə vətən həsrəti ilə yaşayan xeyli Azərbaycan ziyalılarının vətənə geri dönməsinə nail olunmuşdur. Bu baxımdan qeyd etmək lazımdır ki, ictimai-siyasi fəaliyyətin bədii publisistika vasitəsilə əks olunması ölkədə durğunluğun aradan qaldırılmasına, azadlığa qovuşmasında mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyanın **"Yazıçı publisistikası müstəqilliyin ilk illərində"** adlanan ikinci fəsli dörd paraqrafdan ibarətdir. "Müstəqillik dönəmində şəhidlər və Qarabağ mövzusu" adlanan birinci paraqrafda dövrün xarakterik ovqatı təhlil olunur. Ümummilli lider Heydər Əliyevin tamamilə yerində söylədiyi kimi: *"Ölkədə və cəmiyyətdə baş verən dəyişikliklər yazıçı Anara publisist və*

*tədqiqatçı şöhrəti də gətirmişdir”*[8]. Bildiyimiz kimi, cəmiyyətdə baş verən əsaslı dəyişikliklər, xüsusilə 1988-ci ildən başlayaraq ölkədə baş verən siyasi qarmaqarışıqlıqlar, anarxiya, özbaşınalığın son həddə çatdığı bir zamanda Anar qələmə sarıldı və peşəkar bir publisist kimi ictimai-siyasi məzmunlu əsərlər ortaya qoydu. Qanlı Yanvar günlərində sonsuz qəzəb hissi ilə aşıb-daşan yazıçı bir-birinin ardınca “Müsibət”, “Danışa bilmirəm”, “Şəhidlər dağı” adlı təsirli, orijinal publisistik əsərlər ortaya qoymağa nail oldu. Rus dilində yazdığı “Beda” (Müsibət) adlı yazısı bütün respublikaların Yazıçılar İttifaqlarına, bir sıra SSRİ xalq deputatlarına göndərilmişdir.

Şəhidlik mövzusu Elçinin qələmindən də yan keçməmişdir. Milli məfkurəli, həssas müəllif istər publisistik yazıları, istər ictimai fəaliyyəti ilə bütün olmuşlara biganə qala bilməzdi. Elçini daim narahat edən ən ağrılı problemlərdən biri isə 1988-ci ildən ölkəmizin tarixinə qara səhifə kimi daxil olmuş Qarabağ hadisələridir. O, ölkəmizin müstəqillik adlı nemətə qovuşmasından, azadlığından iftixarla söz açırsa, xalqımızın dəhşətli olaylarından – 20 Yanvar hadisələrindən, “Əsrin faciəsi” – Xocalıdan, Qarabağ müsibətlərindən bəhs edərkən ürək ağrısı ilə yazırdı.

Bu baxımdan Qarabağ probleminin beynəlxalq səviyyədə həllinə həsr etdiyi “Siyasi naşılıq nümunəsi”[9] adlı elmi-publisistik yazısı 1989-cu ildə ingilis dilinə tərcümə edilərək “Vətən” cəmiyyəti tərəfindən ABŞ senatına göndərilmişdir. Bu publisistik əsərində müəllif bütünlüklə, başdan-başa Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün bütün imkanlarından istifadə edərək işğal olunmuş torpaqların, xalqın başına gətirilən olmazın müsibətlərin və nəhayət, ədalətli sülhün bərqərar olmasından danışır.

“*...Mən bütün varlığımla inanıram ki, Heydər Əliyevin adı Qarabağı yenidən özümüzə qaytaran, qaçqınlarımızı yenidən öz doğma yerlərində məskunlaşdıran, ərazi bütövlüyümüzü və əbədi müstəqilliyimizi təmin etmiş olan unudulmaz bir dövlət rəhbəri kimi*

---

[8] Əliyev, H.Ə. Yazıçı Anara [Elektron resurs] // Mədəniyyət. – 1998, 13 mart URL: https://lib.aliyevheritage.org/az/2118079.html

[9] Elçin. Siyasi naşılıq nümunəsi // Odlar yurdu, - 1989, 23 oktyabr

*Azərbaycanın qoca və kəşməkəşli tarixində həkk olunacaq*"[10].

İkinci paraqraf "Dil məsələləri"nə həsr olunub. Ana dili məsələsi, ana dili mövzusu dünya ədəbiyyatında daim diqqət mərkəzində olmuş, əhəmiyyətli bir yer tutmuşdur. Ulu öndər Heydər Əliyev dilimizin inkişafı ilə bağlı belə söyləmişdir: "Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün əsas vasitələrdən biri Ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsidir". Xalq yazıçısı Anar bir ictimai xadim olaraq millətin sözünü daha yuxarı dairələrə çatdırmaqda daim məsuliyyətli olmuşdur. O, yazırdı: *"Azərbaycan dili müstəqil bir dildir. Çünki Azərbaycan dilinin özünün özəllikləri, özünəməxsus xüsusiyyətləri vardır."*[11] Dilimizin adının təsdiqi ilə bağlı Anarın xidmətləri o dövr yenicə müstəqillik əldə etmiş ölkəmizin tarixində özünəməxsus əhəmiyyətə malikdir. Bu baxımdan o, "İki dilin bir adı ola bilməz", "Dilimizin adı" kimi məqalə və müsahibələrində də yenə həmin fikirlərə qayıdır. Həmin dövr Milli Məclisin müzakirələri zamanı Anar müstəqil dövlətimizin adının bir neçə versiyada səsləndirilməsinə əsasən yalnız «Azərbaycan türkcəsi» adlandırılmasına tərəfdar olduğunu bildirir. Azərbaycan dilinin yalnız ləhcə olduğunu iddia edənlərə publisist qəti və kəskin şəkildə etirazını bildirir, dilimizin türk dili adlanmasını isə birmənalı olaraq qəbul etmir.

Müstəqillik illərində Elçinin ana dilimizin adı ilə bağlı tövsiyələri xüsusən maraq doğurur. O, "Dilimizin adı haqqında" (1995), "İlk növbədə doğma dilin təəssübü çəkilməlidir" (2001) və s. kimi müsahibə və çıxışları ilə o dövrün mətbuat səhifələrində tez-tez çap olunaraq müstəqil dövlətin dil siyasətində öz fikir və mülahizələrini dönə-dönə bildirmişdir.

"Mədəniyyət və incəsənət məsələləri" adlanan üçüncü paraqrafda müstəqillik dönəmində ölkəmizdə baş verən əsaslı dəyişikliklər xarakterizə olunur. Bəhs olunan dövrdə Anarın publisistikasının böyük bir qolunu mədəniyyət məsələlərinə həsr edilmiş məqalələr, təkliflər, çıxışlar təşkil edir. Şübhəsiz ki, ölkəsinin mədəniyyəti, incəsənətinin çiçəklənməsi bir ayıqdüşüncəli

[10] Elçin. Seçilmiş əsərləri: [10 cilddə] / Elçin. – Bakı: Çinar-Çap, – c. 6. – 2005. – s.215

[11] Həbibbəyli, İ. Möhtəşəm Azərbaycançılıq hadisəsi // 525-ci qəzet. – 2020, 1 iyul

ziyalı, ictimai xadim olaraq Elçini də ciddi maraqlandırırdı, o, da bu məsələdə rahatlıq tapa bilmirdi.

İkinci fəslin dördüncü paraqrafı "Müstəqillik illərində publisistikada siyasi məsələlər" adlanır. Anar və Elçinin siyasi publisistikasına onların müxtəlif çeşidli elmi-siyasi məqalələri, çıxışları, bəyanatları, müraciətləri və s. də aid etmək olar. Bu publisistika 80-ci illərdən xalqın milli təfəkküründə yaranan müstəqilləşmə arzusundan yaranmış, siyasi arenaya müdaxilədən tamamilə uzaq olan müəllifləri ictimai mühit özü peşəkar publisist kimi yetişdirmişdir. Beləliklə, müstəqilliyin ilk illərindən başlayaraq Anar və Elçinin publisistik yaradıcılığı həm də onu deməyə əsas verdi ki, hər iki müəllifi düşündürən vacib məsələ bu idi: bütün olmuşlara biganə qalmamaq, dərhal reaksiya vermək, ictimaiyyəti operativ maarifləndirmək. Onların publisistik üsluba müraciət etməsi də məhz bu məqsədə xidmət edirdi. Şəhidlər, Qarabağ mövzusu, dil, mədəniyyət və incəsənət məsələlərinə müraciət etmələri milli-məfkurəli müəllifləri hər vasitə ilə xalqa daha da yaxınlaşdırdı. Bu deyilənlərdən də belə qənaətə gəlmək olur ki, müstəqillik illərində Anar və Elçinin publisistikasında hər vasitə ilə xalqın rifahı önə çəkilmiş, milli-mənəvi dəyərlər qorunmuşdur. Onlar ictimai fəaliyyətlərinin genişliyi ilə də bunu bir daha sübut etməyə çalışmışlar.

Üçüncü fəsil **“Anar və Elçinin publisistikası yeni əsrdə (XXI əsrdə)”** adlanır və üç paraqrafdan ibarətdir. "Müstəqillik dövründə yazıçı publisistikasında Heydər Əliyev obrazı" adlı birinci paraqrafda müstəqil Azərbaycanın qurucusu, memarı ulu öndər Heydər Əliyevin ölkəmizin tarixində oynadığı müstəsna rolundan bəhs edilir. Anarın publisistik əsərləri sırasında ümumilli lider Heydər Əliyev şəxsiyyəti və onun ölkəmizin tarixində tutduğu şərəfli mövqeyi publisistik yöndə işıqlandıran “Şəxsiyyətin miqyası” (1998), “Qalib gəldi, qalib getdi” (2003) kimi əsərləri öz xüsusi dəst-xəti ilə seçilir. Bu əsərlərin də bilavasitə əks olunduğu “Unudulmaz görüşlər” (2009) adlı monoqrafiyasında yazıçı-publisist dahi rəhbərlə bağlı bütün maraqlı nüanslara, hətta keçmiş sovetlər birliyi dönəmində belə açıqlanması qeyri-mümkün olan vacib məqamlara yeni prizmadan, publisistik rakursu nöqteyi-nəzərindən həssaslıqla

yanaşmışdır.

Dünyaşöhrətli siyasətçi Heydər Əliyevin dərin zəkası, ictimai fəaliyyəti, uzaqgörən siyasəti yuxarıda adları sadalanan bu publisistik əsərlərin əsas məğzini təşkil edir. Dahi rəhbərin istər xalqımıza bəxş etdiyi gözgörəsi və ya pərdəarxası dəyərli xidmətləri, istərsə də ədəbiyyatçılara, xüsusən də AYB-yə verdiyi xüsusi dəyər Anar publisistikasında öz yüksək qiymətini almışdır. H.Əliyev şəxsiyyətinin öz işində, ədəbi-ictimai taleyində böyük rolu olduğunu dəfələrlə qədirşünaslıqla qeyd edən Anar bu dəfə onu bir ictimai xadim kimi daim yaxından müşahidə edə bilməsini də qürur hissi ilə xatırlayır.

Anarın H.Əliyevə həsr etdiyi ən dəyərli əsərlərindən biri olan "Unudulmaz görüşlər" adlı mükəmməl tərtibatda, nəfis şəkildə nəşr etdirdiyi geniş həcmli monoqrafiyası xüsusilə təqdirəlayiqdir. Əsərdə publisistikanın ən yaxşı nümunələri toplanmışdır. Memuar janrı həm də dəqiqlik, düzgünlük tələb etdiyindəndir ki, Anar bu əsərdə hadisələri olduğu kimi, təhrif etmədən yazıçı-ədəbiyyatçı rakursu nöqteyi-nəzərindən işıqlandırmaq istəmişdir.

Bəhs olunan dönəmdə Elçin publisistikasında da Heydər Əliyev obrazı mükəmməl şəkildə öz əksini tapmışdır. 1993-cü ildən Baş nazirin müavini vəzifəsinə irəli çəkiləndə Elçinin məqsədi yalnız vətənə layiqincə xidmət etmək, yenicə müstəqilliyə qovuşmuş ölkəsinin çiçəklənməsi, vüqarla ayağa durması, qüdrətli dövlətlər sırasında məxsusi yeri olması üçün əlindən gələni etmək olur. Bu yolda o, müstəqil dövlətin qurucusu ilə çiyin-çiyinə cəsarətlə addımladığını publisistik əsərlərində böyük iftixar hissi ilə qələmə almışdı. Publisistik üslubun bütün növlərində – oçerk, məqalə, müsahibə və çıxışlarında qələmini sınayan yazıçı-publisist dahi rəhbərlə bağlı bütün hadisələri tarixi-siyasi faktlarla əks etdirmişdir. Bütün çıxış, müsahibə, məqalələrində bunu daim, dönə-dönə qürur və fəxarət hissi ilə vurğulayan müəllif dahi rəhbərin xatirəsini "Dünya axirət əkini..." (1992), "Tarixlə üz-üzə dayanmış adam" (1995) adlı publisistik əsərləri vasitəsilə əbədiləşdirmişdir. Hər iki əsərdə bədii tutum, hadisələri təhrif etmədən doğru-düzgün təqdim etmə bacarığı və dövrün siyasi icmalını yetərli baxış bucağından işıqlandırmaq kimi keyfiyyətlər özünü göstərir. "Dünya

axirət əkini...” adlandırdığı publisist yazısını müəllif oçerk adlandırır. Oçerk publisistik üslubun daha geniş həcm imkanlarına malik bir növüdür. Oçerkdə hadisələr həyatda olduğu kimi təqdim edildiyindəndir ki, publisist burada real hadisələrə sadiq qalmış, ancaq Ulu öndərlə bağlı saf, təmiz hisslərini işıqlandırmağa çalışmışdır. Əsərdə həm elmi, həm siyasi və həm də bədii publisistikanın bütün imkanlarından yerli-yerində, yetərincə bəhrələnən müəllif hər üç növü məharətlə sintezləşdirmişdir. Məclislərin birində “Ulu öndəri bir sözlə necə səciyyələndirərdiniz? – sualına Elçin gözlənilmədən verdiyi cavabı barədə belə yazır: *“Özüm üçün də gözlənilməz bir cavab verdim: Tənha adam.” Bilmirəm nə üçün belə dedim? Nəyə görə? Hansı əsasla? Bəlkə ona görə ki, istedadlı şəxsiyyət həmişə tənha olur? Bilmirəm...Amma belə dedim və indi də belə düşünürəm”* [12] söyləyən müəllif bu fikirlərini 1992-ci ildə qələmə almışdır. Bu elə bir dövr idi ki, bəzi insanlar bəlkə də, H.Əliyevi doğurdan da tənha adam hesab edə bilərdilər. Lakin, uzaqgörən ziyalılar, o cümlədən də Elçin H.Əliyevin dünyada bənzəri olmayan siyasi məktəb yaratmasını, heç kəsin ağlına gəlməyən diplomatik gedişlər etməsini həssaslıqla duyurdu. “Tənha adam” ifadəsi bu mətndə sanki sehirlənir, yeni məna çalarları ilə zənginləşir, ümummilli liderimizin əlçatmazlığının sinoniminə çevrilir.

Üçüncü fəslin ikinci paraqrafı "Görkəmli şəxsiyyətlər Anar və Elçinin publisistikasında" adlanır**.** Anarın “Mübarizə bu gün də var” adlı kitabı görkəmli Xalq şairi Rəsul Rzaya ithaf edilmişdir. “Unudulmaz görüşlər” (H.Əliyevə), “Həyatım ağrıyır” (Ə.Məmmədxanlıya) və s. digər çoxsaylı əsərləri görkəmli şəxsiyyətlərin xatirəsinə həsr edilmişdir. Elçinin publisistikasında da ayrı-ayrı görkəmli şəxsiyyətlərə həsr olunmuş əsərlər kifayət qədərdir. Belə əsərlərə misal olaraq “Məmməd Əmin Rəsulzadə”, “Nəriman Nərimanov: şəxsiyyəti və fəaliyyəti”, “Əbədi müasirimiz (Mirzə Cəlil haqqında)”, “Cəfər müəllim”, “Bəstəkarın vətəndaş sözü” (Ü.Hacıbəyli haqqında) və s. adlarını çəkə bilərik.

---

[12] Elçin. Seçilmiş əsərləri: [10 cilddə] / Elçin. – Bakı: Çinar-Çap, – c. 9. – 2005. – s.238

N.Nərimanov adlı məqalədə publisist Azərbaycanın siyasi səhnəsini çox gözəl təsvir etmiş, dövrümüz üçün maraqlı və təsirli detalların da şahidi olduğunu belə bildirmişdir:

*"Altmışıncı illərin sonlarında Moskvada birinci və sonuncu dəfə Leninin iş kabinetində oldum. Orada divarın bir küncündə Zaqafqaziyanın xəritəsi asılmışdır və bu xəritədə Azərbaycan deyilən bir şey yox idi: Ermənistan, Gürcüstan və Azərbaycan ərazisində Kür çayının sahili boyunca "kyurtsı"* (yəni "kürlülər" mənasında yazılmışdır")[13] Təkcə bu sətirlər kifayətdir ki, ölkəmizin bu gün dünya dövlətləri arasında öz layiqli yerini tutması, dünya xəritəsində sanbalı ilə seçilməsi, Azərbaycanın günü-gündən çiçəklənməsi yolunda ümumilli liderimiz Heydər Əliyevin xalqımıza miras qoyduğu müstəqillik ideyaları və bu ideyaların uğurlu davamı kimi cənab İlham Əiyevin gördüyü xidmətləri müqayisə edəsən.

"Əbədi müasirimiz" adlı əsərini Elçin görkəmli ədibimiz, yazıçı-publisist Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinə həsr etmişdir.

Üçüncü fəslin üçüncü paraqrafı "Anarın "Gecə düşüncələri" və Elçinin "Ədəbi düşüncələr"ində ədəbiyyat və sənət məsələləri" adlanır. Çağdaş publisist yazarlardan Anarın məhz bu janra məxsus "Gecə düşüncələri", habelə Elçinin "Ədəbi düşüncələr" başlığı altında toplanmış dəyərli ədəbi nümunələri haqqında kifayət qədər fikir söyləmək olar. İstər "Gecə düşüncələri", istərsə də "Ədəbi düşüncələr" hər ikisi orijinal üslub və ifadə tərzi baxımından, həyatın müxtəlif sahələrini işıqlandırmaq yönündən olduqca maraqlı, zəngin və əhatəlidir.

Ümumiyyətlə, Anar və Elçinin publisistik yaradıcılığı müstəqilliyin ilk illərində bir qədər təlaş hissləri, pessimist ovqatla müşahidə olunurdusa, artıq son on ilin yaradıcılığına nəzər salanda görürük ki, bu hisslər artıq nikbinliklə əvəzlənir.

Elçinin son dövr publisistik yaradıcılığında memuar janrı üstünlük təşkil edir və o, yeri gəldikcə əsərlərini daha rəngarəng,

---

[13] Elçin. Seçilmiş əsərləri: [10 cilddə] / Elçin. – Bakı: Çinar-Çap, – c. 10. – 2005. – s. 52

oxunaqlı etmək üçün yumor imkanlarından da kifayət qədər istifadə etmişdir. Bununla yanaşı Elçin həm də son illər bir ədəbiyyatşünas-tənqidçi kimi də geniş fəaliyyət göstərmişdir. İşinin ağırlığına baxmayaraq Elçin gənc yazarları oxumağa da vaxt tapır, ədəbi tənqid haqqında da fikirlərini mətbuatda geniş şəkildə sərgiləyir. Ümumiyyətlə, müstəqillik illərində Anar və Elçinin bədii publisistikasında tematik quruluş, təhkiyə, dil-üslub orijinallığı, cəmiyyətin sosial sferasının özəllikləri də məharətlə təsvir edilmişdir.

**Nəticə**. Dissertasiyasında əldə etdiyimiz elmi qənaətləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

– Müstəqillik dönəmi Azərbaycan ədəbiyyatının, mədəniyyəti, incəsənəti və sosial sferasında əhəmiyyətli dəyişikliklər, təbəddülatlar mərhələsi kimi tarixə həkk olundu. Publisistika tarixini araşdırarkən bir daha bu qənaətə gəlirik ki, zaman-zaman peşəkar publisistlər yetirmiş Azərbaycan dövrü mətbuatının milli mədəniyyətimizin inkişafında xüsusi rolu olmuş, bu gün davam və inkişaf edən publisistikanın təməli məşhur “Əkinçi”dən, “Molla Nəsrəddin” ənənələrindən bəhrələnmişdir. Müstəqillik illərində artıq kifayət qədər püxtələşmiş publisistika nümunələri, peşəkar publisistlər ordusunun zəhməti və səyi bu üslubun daha mükəmməl bir səviyyəyə çatmasına gətirib çıxarmışdır.

Bütün bu sadalanan xidmətlər çağdaş publisistikamızın ideya istiqamətlərinə daxil olaraq onun əsas qayəsini təşkil edir.

– Müstəqillik dönəmində publisistikanın inkişafında müstəsna xidmətlərə malik Xalq yazıçıları S.Əhmədli, Anar və Elçin, S.Rüstəmxanlı, E.Axundova və s. kimi gorkəmli sənətkarların bu sahədə gördüyü işlər olduqca mühüm və əhəmiyyətlidir. Müstəqillik illərində onların publisistik yaradıcılığını dərindən təhlil edib araşdırarkən bir daha onun şahidi oluruq ki, onların bədii əsərlərində olduğu kimi, publisistik əsərlərində də daim vətənə məhəbbət, xalqa xoş gələcək arzuları qabarıqlığı ilə əks olunur. Onlar bütün istəklərini kütləyə daha operativ çatdırmaq məqsədilə publisistik üslubun imkanlarından yetərincə istifadə etmişlər.

– Tədqiqatda Azərbaycanda publisistikanın təşəkkülü və inkişafı mərhələ-mərhələ, ardıcıl şəkildə araşdırılaraq çözüm obyektinə çevrilmiş və aydın olmuşdur ki, müstəqillik dönəmində

davam və inkişaf edən publisistikanın məhək daşları hələ çox-çox əvvəllərə söykənir.

− Yazıçı publisistikasının qaynaqlandığı köklər, publisistik yaradıcılığa sövq edən amillər, bu cür əsərlərin mövzusu, ideya istiqamətləri araşdırılarkən bir daha əminliklə onu demək olar ki, adları çəkilən sənətkarlar milli-mənəvi dəyərlərə sadiq qalmış bu ənənələrdən lazımınca bəhrələnmişlər.

− Tədqiqatda Anar və Elçinin publisistik yaradıcılığının əsas mövzuları, ideya istiqamətləri müəyyənləşdirilərək qruplaşdırılmış, ayrı-ayrı bölmələrdə toplanmışdır. Hər iki sənətkarın öz ölkəsinin təbiətinin gözəlliklərinin tərənnümü, müstəqilliyə qovuşmaq üçün xalqın üzləşdiyi müsibətlər (20 Yanvar, Xocalı faciələri, Qarabağ problemi), ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində göstərdiyi misilsiz xidmətləri, ana dilimizin adı, saflığı uğurunda mübarizə, elm-təhsil, mədəniyyət məsələlərinin önə çəkilməsi, tarixi abidələrin qorunması, korifey sənətkarların xatirəsinə həsr edilən memuar janrının gözəl nümunələri, ölkə başçılarına ünvanladığı epistolyar publisistika nümunələri və s. ətraflı şərh olunmuşdur.

- Tədqiqat nəticəsində aydınlaşdırılmışdır ki, müstəqillik illərində Azərbaycan ədəbiyyatının əsas sahələrindən biri olan yazıçı publisistikasının inkişaf səviyyəsinin öyrənilməsi, tədqiqat məsələləri aktuallığı ilə seçilir.

- Yazıçı publisistikasının bir orijinallığı da dünya publisistikası kontekstinə cavab verməsidir. Aparılan araşdırmalar nəticəsində bu qənaəti reallaşdırmağa nail olmuşuq.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı monoqrafiya, məqalə və konfrans materiallarında öz əksini tapmışdır.**


1. Məmmədəliyeva, L.F. Anarın Ümumilli liderlə "Unudulmaz görüşlər"i / L.Məmmədəliyeva. – Bakı: Elm, – 2015. – 124 s.
2. Məmmədəliyeva, L.F. Elçin publisistikasında "Tənha adam" – Ulu öndər obrazı / L.Məmmədəliyeva. – Bakı: Elm, – 2016. – 116 səh.
3. Məmmədəliyeva, L.F. Publisistik düşüncələr / L.Məmmədəliyeva. – Bakı: Borçalı nəşriyyatı, – 2022, – 216 s.
4. Elçinin publisistikasında "Vətən" cəmiyyətinin fəaliyyəti // – Bakı: Kitabşünaslıq və Nəşriyyat işi, – 2013. – №1, – s. 70-74.
5. Müstəqillik illərində Elçinin publisistikasında Heydər Əliyev obrazı // – Bakı: Filologiya məsələləri jurnalı, – 2013. – №1, – s. 425-431.
6. Heydər Əliyevin Azərbaycançılıq təlimi // Ümumilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi və hakimiyyətə qayıdışının 20 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans. – Bakı: – 8 iyun, – 2013, – s. 259-267.
7. Müstəqillik illərində Anarın publisistikasında Heydər Əliyev obrazı // Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" adlı beynəlxalq elmi-praktik konfrans. – Bakı: – 5 may, – 2013, − s. 149-170.
8. «Ночные раздумя», «Литературные раздумя» или же «Размышления о литературе» (на основе эссе Анар и Эльчина) // – Симферополь: Учение Записки Таврического Национального Университета, – 2014, – №4. – с. 216-221.
9. Müstəqillik illərində Anarın publisistikasında Heydər Əliyev obrazı // Xarici dillərin tədrisinin aktual problemləri respublika elmi-praktik konfrans, – Bakı: – 12 may, – 2016, – s. 457-459.
10. Müstəqillik dönəmində Anar və Elçinin publisistikasında

şəhidlər və Qarabağ mövzusu // S.Vurğunun anadan olmasının 110 illik yubileyinə həsr olunmuş Çağdaş filologiyanın aktual problemləri mövzusunda elmi-praktik konfrans, – Bakı:  – 3 noyabr, – 2016, – s. 72-82.

11. Müstəqillik illərində yazıçı publisistikasında dil məsələləri // Gənc tədqiqatçıların III ümumrespublika elmi-praktik konfransı, – Bakı: – 13 mart, –2020, – s. 185-187.
12. Yazıçı publisistikasında tarix və müasirlik // "Müasir dünyada mədəniyyətlərarası münasibətlər" adlı XV beynəlxalq elmi simpozium, – Türkiyə-İran: – 26 iyun, – 2021, – s.118-120.
13. Müstəqillik illərində yazıçı publisistikasında mədəniyyət və incəsənət məsələləri // – Bakı: İpək yolu, – 2021, – №2, – s. 155-159.
14. Müstəqillik illərində yazıçı publisistikasında memuar-xatirə janrı (Anar və Elçinin əsərləri əsasında) // – Bakı: Filologiya məsələləri, – 2021, – №7, – s. 201-213.

Dissertasiyanın müdafiəsi ***“28” oktyabr*** 2022-ci il tarixində saat **14$^{00}$**-da AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001. Bakı şəh., İstiqlaliyyət küçəsi 53. AMEA Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyi.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat *“27” sentyabr* 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.09.2022

Kağızın formatı: A5

Həcm: 37 206

Tiraj: 100